**Onlar Vətən uğrunda vuruşmuşlar**

# Mənim ola zirvənin o qürurlu duruşu...

***Könül, bu gün nağıl danış,***
***Dünənimə qaytar məni.***
***Ələnməmiş, üyünməmiş,***
***Öz mənimə qaytar məni...***

İnsanın dünəni onun ta dünyaya gəlişindən başlanır. Ömrünün qayğısız, xülyalarla dolu uşaqlığından, dəcəl, şirin hərəkətlərindən, əzizlərinin yaddaşında əbədi iz salan sözlərindən, özünəxas xüsusiyyətlərindən. Sonra da illər ayları əvəz etdikcə xarakterinin formalaşmasından, qəlbi arzularla «yüklənməsindən» və bu arzular uğrunda «çapasından» başlanır hər kəsin dünəni. Dünənləri yaşar ki insan, bu gününə ayaq bassın.

Onu tanımaq istədim, çünki şəklinə baxdıqca baxışları mənə dedi ki, ömrümü nağıl edib dünənimə qaytar məni, elə olduğum kimi öz mənimə qaytar məni.

Qədim Qəbələnin təbii gözəllikləri ilə dolu olan bir guşəsində - Topbağ kəndində dünyaya göz açmışdı o. Ailənin arzulanan və həsrətlə gözlənilən bir körpəsi olmuş, dünyaya gəlişi əzizlərinin qəlbində bir bayram sevincinə dönmüşdü.

Hər addımı, dilindən çıxan hər kəlməsi, etdiyi hər hərəkəti nadir tapıntı təsiri bağışlamışdı əzizlərinə. Bax, beləcə qayğı ilə, sevgi ilə böyümüşdü. Ancaq nə qədər əzizlənsə də düşüncəli, hərəkət və danışdığı hər kəlməsinə diqqət edən, hörmət etməyi bacaran bir uşaq kimi böyüyürdü.

O - Hakim Səyyar oğlu Baxışov dekabrın 13-də Topbağ kəndində doğulmuşdur. İlk təhsilini Topbağ kəndində almış, orta təhsilini isə qonşu Yenikənd kənd orta məktəbində başa vurmuşdur. Məktəb illərində də müəllim və məktəb yoldaşları tərəfindən həmişə sevilən bir şagird olmuşdur. Ot kökü üstə bitər deyib ata-babalarımız. Hakim də məhz doğulduğu, böyüdüyü mühitdən bəhrələnərək sağlam düşüncəli bir yeniyetmə gənc kimi formalaşırdı. Ailədə 4 övlad böyüyürdü və Hakim onlardan ən kiçiyi idi. Atası Səyyar həkim, anası Rəna xanım övladları arasında fərq qoymazdı, ancaq evin kiçiyi olan Hakim vətənin sabahkı əsgəri idi və onun kişi xislətli böyüməsinə valideynləri diqqət edərdi. Bacıları Gülnar, Gülnaz, Mehriban Hakimlə həmişə fəxr edər, kiçik olmasına rəğmən onu özlərinə ən yaxşı məsləhətçi, dost bilərdilər. Hakim cəsur və mərd bir gənc kimi formalaşırdı. Ailə mühiti, dərs aldığı müəllimlər onun həyatına, dünyagörüşünə müsbət təsir göstərdi. Lakin 2019-cu ilin yanvarında həqiqi hərbi xidmətə çağırılmışdı. Xidmət illərində də həmişə nümunəvi əsgər kimi kollektivin hörmətini qazanmışdır.

Xidmət illərində də həmişə nümunəvi əsgər kimi kollektivin hörmətini qazanmışdır. Torpağına, vətəninə bağlı bir gənc idi Hakim. Birinci Qarabağ müharibəsi zamanı müəyyən səbəblər üzündən düşmənin zəbt etdiyi torpaqlarımız, yağmalanan, dağıdılar şəhər,



qəsəbə və kəndlərimiz, doğma obasından məcburən köçkün edilən soydaşlarımız, yaşanılan - erməni faşistləri tərəfindən törədilən faciələr onda ermənilərə dərin nifrət oyatmışdı. O, vətənini bütöv, torpaqlarını azad, xalqını firavan görmək istəyirdi. Onun ən ümdə arzusu gözəlliklər məskəni olan Qarabağın işğal altındakı ərazilərinin yad tapdağından təmizlənməsi, qalib bir ölkənin vətəndaşı olması, zirvənin vüqarlı duruşu kimi qürurla Azərbaycan bayrağına sığınması idi. Elə buna görə hərbi işdə qalmaq, vətəninə xidmət etmək, lazım gələrsə hər an döyüşlərə hazır olmaq istədi. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi qulluqçu kimi orduda xidmət etmişdir. Azərbaycan ordusunun əsgəri olan Hakim Baxışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir.

**Vətən ona oğul deyəndə**

Vətənin dar günündə onun vətənpərvərləri hər qarış torpağına sipər olarlar, «mamır olub qayalarında bitərlər». Hakim hələ uşaqlıqdan bu anları - yəni döyüşərək vətən torpaqlarını azad etməyi öz təxəyyülündə yaşadırdı və hər an özünü müsəlləh əsgər sanırdı. Sentyabrın 27-də - elə ilk günü döyüşlərdə iştirak etdi. O, Kəlbəcərdə, Murovdağın azad olunmasında döyüşmüşdü. Qəhrəman olmaq, igidlik göstərmək üçün zaman əsas deyil. Bir gün də, 10 ay, 10 il döyüşsən də fərqi yox, əgər vətən uğrunda öz canını fəda etməkdən çəkinmir və qorxmursansa, ölümün «gözünə» dik baxırsansa qəhrəmansan!

Döyüşə başladığı ikinci günü - 28 sentyabrda Murov istiqamətində gedən döyüşlərdə şəhadətə qovuşdu Hakim. Düşmən gülləsinə tuş gəlməsəydi o, daha çox qəhrəmanlıqlar göstərəcəkdi. Ancaq o, az müddətdə ilk şəhadət yolçularından oldu, qorxmazlığı və iradə möhkəmliyi ilə şəhidlik zirvəsinə ucaldı, qan tökdüyü torpağın çiçəklərinə üz qoydu, qayalarda izini həkk etdi, dağların zirvələrinə ən güclü şimşək kimi parladı və bu parıltı sonrakı döyüşlərə əsgərlərimiz üçün bir yaşıl işıq oldu.

İstedadlı şair Məmməd Arazın misraları onun arzu yolu, igidlik «dayanacağı» oldu.

***Qayalarda həkk olmayan***
***iz itər,***
***Bu bahardan o bahara iz itər,***
***Üzüm dəyə çiçəklərə***
***üzü tər...***

Tər çiçəklərə üz qoyduğu o yerlərdə bitən güllər şəhid qoxulu, Hakim qoxulu... günəşə boylanıb göy qübbəsindən onun ruhunu izlər...

Hakim Baxışov doğma obasında - Topbağ kəndində dəfn olunmuşdur. Arzuları çiliklənərək Kəlbəcər torpağına «səpələnən» Hakim Baxışovun əzizlərinin də arzuları nakam qalmış, sadəcə daş üzərində olan əksi ilə arzularının nağıllarını birgə danışar, birgə dinlərlər.

Hakim Baxışov ölümündən sonra «Hərbi xidmətə görə», «Vətən uğrunda», «Kəlbəcərin azad olunmasına görə» medalları və «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmuşdur. Dekabrda doğulsa da əbədi olaraq bahar ömürlü olan Hakim Baxışov hər bir vətənpərvər insanın qəlbində əbədi yaşayacaq.

**BİBİXANIM.**

# Vətən sevdalı igidimiz




Rəhimov Elnur Məhəmməd oğlu. 2000 ci ilin 25 iyulunda Qəbələ rayonu Mıxlıqovaq kəndində anadan olmuşdu. 2006-2017-ci illərdə Fəzail Həmidov adına Mıxlıqovaq kənd tam orta məktəbini bitirdikdən sonra 2018-ci ilin 26 iyulunda hərbi xidmətə yollanıb. 2020-ci ilin yanvar ayında hərbi xidmətini başa vurub. Hələ orta məktəb illərində hərbiçi olmağa qərar vermişdi. Odur ki, yenidən hərbiyə qayıtmaq üçün müraciət etmişdi. 2020-ci ilin yay aylarında xidməti kursunu müvəffəqiyyətlə bitirdikdən sonra sentyabr ayında keçmiş Beyləqanda MAXE əsgər olaraq yenidən xidmətə başlamışdı. Vətən müharibəsində Füzuli, Xocavənd, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdi. Şəhid olduğu gün dəqiq bəlli deyil. Lakin noyabrın 1-də itkin kimi siyahıya alınmışdı. Elnur 1 dekabrda Qəbələ rayonu, Mıxlıqovaq kənd qəbirstanlığında torpağa tapşırılıb.

İgid qəhrəmanımız Elnur Rəhimov haqqında ömür tarixinə sığışmaz qədər xatirələri var. Onun doğmaları ilə müsahibə alanda atası körpə uşaq kimi ağlayırdı. Bu o deməkdir ki, Elnur tərbiyəli, ailəcanlı, Vətəninə layiqli övlad olmuşdur. Ata-anasının ən böyük arzusu idi onun toy məclisini görmək. Qardaşı bu haqda deyəndə o deyirdi: Qoy həyət bacaya əl gəzdirək, səliqə-sahmana salaq sonra. Elə bil onun ürəyinə dammışdı, ona görə bəlkə yubadırdı. Elnurun özündən böyük 18 yaşında bir qardaşı da vaxtsız dünyadan köçmüşdü. Bir ocağdan iki övlad itkisi atanı çökdürsə də Elnurun igidliyi ataya az da olsa təskinlik verirdi.

Elnurun anası da vaxtsız xəstə düşmüşdü, bu da Elnur üçün ağır bir dərd idi.

Deyirlər qəhrəmanlıqlar dərd çəkənlərin dərdinə məlhəm olur, igidliyi, vətənpərvərliyi, ölməzliyi ilə, bəli. Elnur da öz ata, anasının, qardaşının yaralı qəlblərinə qəhrəmanlığı ilə, şəhidliyi ilə məlhəm oldu.

İllər yenilənəcək, bayramlar təzələnəcək, ömürlər keçəcək, amma şəhidlər ölməyəcək, onlar daima xalqın qəlbində yaşayacaq.

Allah şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun.

**Şəhla XƏLİLQIZI.**

# Matəm günü elan edilib



Dekabrın 25-də Bakı-Qrozni reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib.

Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında deyilir ki, “Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus Bakı-Qrozni reysini yerinə yetirən “Embraer 190” təyyarəsi təcili eniş zərurəti ilə bağlı Aktau şəhəri istiqamətində yön alaraq, Aktau şəhəri yaxınlığında qəzaya uğramasından sonra ilkin məlumata əsasən 32 nəfərin sağ qaldığı müəyyən edilib. Aralarında vəziyyəti ağır olanlar var.

Nazirliyin məlumatına görə, təyyarənin göyərtəsində 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə 67 nəfər olub.

“Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Baş nazir Əli Əsədovun sədrliyi ilə dövlət komissiyası yaradılıb. Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, faciəvi qəza ilə əlaqədar, Azərbaycan fövqəladə hallar naziri, eləcə də rəqəmsal inkişaf və nəqliyyat nazirinin rəhbərlik etdiyi heyət Qazaxıstana yola düşüb. Qəza ilə əlaqədar ilk andan Azərbaycanın Aktau şəhərindəki Baş Konsulluğu hadisə yerində fəaliyyət göstərir. Qazaxıstan tərəfi ilə əlaqələndirilməklə, fövqəladə xilasetmə qurumları tərəfindən təcili operativ tədbirlər görülür", nazirliyin məlumatında deyilir.

Qazaxıstanın Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, sağ qalanlardan 29 nəfəri Manqıstau Vilayət Xəstəxanasına çatdırılıb.

"Aktau yaxınlığında AZAL-ın sərnişin təyyarəsinin qəzaya uğradığı yerdən tibb müəssisələrinə xəsarət alan 29 şəxs aparılıb. Onlardan 11 nəfəri reanimasiyaya yerləşdirilib", nazirliyin məlumatında deyilir.

# Mediatorların I Beynəlxalq Qurultayı Ankara şəhərində oldu




Qəbələ 1 saylı Mediasiya təşkilatı 27 noyabr - 3 dekabr 2024-cü il tarixlərində Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində Ankara şəhərində rəsmi səfərdə olmuşdur. Təşkilat 28 noyabr - 1 dekabr 2024-cü il tarixlərində Ankara şəhərində keçirilən Beynəlxalq Mediatorlar Şurasının I qurultayında iştirak etmişdir.

Qurultay ərəfəsində rəsmi şəkildə Ankara Medipol Universiteti və Ankara Yıldırım Bəyazit Universitetlərində seminarlarda iştirak edilmiş, iştirakçılara universitetlərin rəhbərləri tərəfindən müvafiq sənədlər təqdim olunmuşdu.

28 noyabr 2024-cü il tarixində Ankara şəhərində Azərbaycan Respublikası Mediasiya Şurasının təşkilatçılığı ilə “Qarabağ gecəsi” keçirildi. Həmin tədbirdə qurultayda iştirak etmək üçün Ankara şəhərinə gəlmiş 11 ölkədən nümayəndələr, həmin ölkələrin dövlət və hökümət nümayəndələri iştirak etmişlər.

Tədbirdə bir sıra ölkələrin qabaqcıl təcrübəsi ilə fikir mübadiləsi edilmiş, əlaqələr yaradılmışdır.

**Ədalət ƏLİYEV,**
**Qəbələ Mediasiya Təşkilatının rəhbəri.**